# BMT mina təhdidi ilə mübarizədə Azərbaycanın gördüyü işləri təqdirəlayiq qiymətləndirib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüşdə Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, habelə COP29 sədrliyimiz müzakirə olunub.

COP29-un uğurlu təşkilində Azərbaycan və BMT arasında əməkdaşlığın əhəmiyyəti qeyd olunub.



Nazir Ceyhun Bayramov COP29-un təşkilati hissəsi ilə yanaşı, məzmun baxımından faydalı olmasının əsas prioritetlərimizdən biri olduğunu qeyd edərək sessiyanın gedişatı, danışıqlar prosesində əldə olunmuş irəliləyişlər barədə ətraflı məlumat verib. Baş katibin köməkçisi Aleksandr Zuyev COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edib, bu münasibətlə ölkəmizə təbriklərini çatdırıb və sədrlik prosesi çərçivəsində uğurlar arzu edib.

COP29 çərçivəsində təşkil olunmuş yüksəksəviyyəli tədbirlərdə iştirak etdiyini qeyd edən Aleksandr Zuyev müxtəlif mövzulara həsr olunmuş tematik toplantıların fikir mübadiləsi baxımından faydalı olduğunu qeyd edib.

Mina təhdidi ilə mübarizə istiqamətində ölkəmiz tərəfindən görülən işlərin təqdirəlayiq olduğu, xüsusilə humanitar minatəmizləmə fəaliyyətinin 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan olunmasının bu beynəlxalq təhdidlə mübarizədə örnək olduğu vurğulanıb.

Humanitar minatəmizləmə fəaliyyəti ilə yanaşı, mina qurbanlarının reabilitasiyası istiqamətində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 16 noyabr (№ 252).- S.6.